

*Həqiqət - tarixin daş yazısı*

# BİZ ZAMANIN ŞAHİDİYİK

Bu il «Cümhuriyyət ili» elan olunub. Bu Azərbaycan xalqının şərəfli keçmişinə ehtiramın ifadəsidir.

Bir vaxt Naxçıvanda Azərbaycanın tarixi üçrəngli bayrağını qaldıran Heydər Əliyev bu əməli ilə cümhuriyyət dövrünün mənəvi lideri Rəsulzadənin məşhur kəlamına, Azərbaycan Xalq Cümhuriyyəti tarixi bayrağına yenidən can verdi, ruh bəxş elədi. Sonralar müqavimətlər olsa da, tarixi həqiqətin qayıdışına kimsə mane ola bilmədi.

Azərbaycan öz istiqlalına qovuşdu.

İstiqlal isə ürəklərdə yanan od və atəşdir. Onu söndürməyə, yaddaş məzarlığına gömməyə hazır olan qüvvələr də az deyildi. Azərbaycanın azadlığını təzədən zəncirləmək istəyində olanlar mühüm bir amili unutmuşdular.

Unudulan böyük Heydər Əliyev fenomeni idi. Azərbaycan azadlığına yağı kəsilənlər unutmuşdular ki, Azərbaycan xalqının varlığında əbədi sönməyəcək bir Heydər Əliyev ocağı var. Tarixin soyuq küləkləri əsən kimi xalqın istəyi ilə bu ocaq alovlandı, böyük nəşələrə çevrildi. Xalqın tələbi ilə Heydər Əliyev hakimiyyət başına gəldi.

İnsanların qorxu və vahiməsi, böyük xaos, həyata inamın itməsi... həmin günlərin xarakterik cizgiləri idi.

Məhz Ulu Öndər Heydər Əliyev insanların həyata inamını qaytardı. 1993-cü ilin iyun günləri. Xeyirin və şərin olum-ölüm mübarizəsi.

...Və beləcə, 15 iyun Milli Qurtuluş Günü adı ilə tarixə yazıldı.

...Həqiqət - tarixin daş yazısı. Bu yazını zamanın küləkləri heç vaxt poza bilmir. İllər, qərinələr keçəcək. Bizdən uzaqlaşan tarix böyük həqiqətin əbədi yazısı kimi yaddaşımızda bizə daha doğma olacaq. ...Biz zamanın şahidiyik.

*Əli Rza XƏLƏFLİ*
*12.06.2018*

Kredo .- 2022.- 15 iyun.- S.1.